**SUMQAYIT REGİONAL MƏDƏNİYYƏT İDARƏSİ**
**SUMQAYIT ŞƏHƏR S. VURĞUN ADINA MƏRKƏZİ KİTABXANA**

# İSMAYIL ŞIXLI - 100

## Biblioqrafik göstərici

**Sumqayıt - 2019**

KBT 91.9

Tərtibçilər : Nazxanım Cəfərova

Redaktor: Yeganə Əhmədova
Əməkdar mədəniyyət işçisi

Operator : Səfurə Nəcəfova , B. Əhmədova

İsmayıl Şıxlı - 100: Biblioqrafik göstərici /tərt.ed.: N.Cəfərova ; red. Y.Əhmədova; operator N. Cəfərova, B. Əhmədova; S.Vurğun adına Mərkəzi Kitabxana. – Sumqayıt, 2019. – 107 s.

Sumqayıt şəhər S. Vurğun adına Mərkəzi kitabxana Azərbaycanın xalq yazıçısı İsmayıl Şıxlının anadan olmasının 100 illik yubileyi münasibətilə “İsmayıl Şıxlı” adlı biblioqrafik göstərici tərtib etmişdir. Göstəricidə böyük sənətkarın həyat və yaradıcılığı haqqında məlumat, həyat və yaradıcılığının əsas tarixləri, İsmayıl Şıxlı haqqında görkəmli şəxslərin fikirləri, yazıçının 50 ilə yaxın bir dövrdə çap edilmiş əsərləri, tərcümə yaradıcılığı və onun haqqında yazılmış materiallar əhatə olunmuşdur.

Vəsait geniş oxucu kütlələri üçün nəzərdə tutulmuşdur.

**Сумгайитское Региональное Управление Культуры**
**Город Сумгайыт Центральная Библиотека им. С.Вургуна**

# Исмайыл Шихлы -100

## Библиографический Указатель

**Сумгайит- 2019**

ББК 91.9

Составители: Назханым Джафарова

Редактор: Егана Ахмедова
заслуженный работник культуры

Оператор: Сафура Наджафова, Бахар Ахмедова.

Исмайыл Шихлы-100: Библиография / составит.:Н. Джафарова; ред. Е.Ахмедова; оператор С.Наджафова, Б.Ахмедова; Центральная городская библиотека им. С. Вургуна.- Сумгайит, 2019.-107с.

Центральная Библиотека им. С.Вургуна города Сумгайита, составила библиографический указатель под названием « Исмайил Шихлы-100», посвященный 100 летию народного писателя Азербайджана Исмайилу Шихлы. Библиографический указатель содержит информацию о жизни и творчестве великого писателя, основные даты его жизни и творчества, высказывания великих людей об Исмайиле Шихлы, освещены работы писателя, опубликованные примерно за 50 лет, переводческие работы и материалы о нем.

Указатель предназначен для широкого круга читателей

## Tərtibçidən

Bu il Azərbaycanın xalq yazıçısı İsmayıl Şıxlının anadan olmasının 100 ili tamam olur. Azərbaycan ədəbiyyatının sevilən nümayəndəsi, hər zaman oxucu marağında olan yazarlarımızdandır İsmayıl Şıxlı.

Sumqayıt şəhər S. Vurğun adına Mərkəzi kitabxana yazıçının yubileyi münasibətilə biblioqrafik göstərici tərtib etmişdir. 1961-2018-ci illəri əhatə edən biblioqrafik göstəricidə böyük sənətkarın həyat və yaradıcılığı haqqında məlumat, həyat və yaradıcılığının əsas tarixləri, ayrı-ayrı sənətkarlar haqqında söylədiyi dəyərli fikirləri və İsmayıl Şıxlı haqqında görkəmli sənətkarların fikirləri, yazıçının 50 ilə yaxın bir dövrdə çap edilmiş əsərləri, tərcümə yaradıcılığı və onun haqqında yazılmış materiallar əhatə olunmuşdur.

Vəsait geniş oxucu kütlələri – orta məktəbin yuxarı sinif şagirdləri, tələbələr, aspirantlar, tədqiqatçı alimlər, bütün ədəbiyyat həvəskarları üçün nəzərdə tutulmuşdur.

Biblioqrafik göstərici xronoloji prinsip üzrə, daxildə isə əlifba sırası ilə qruplaşdırılmışdır.

Vəsaitdən istifadəni asanlaşdırmaq üçün kitabın axırında İsmayıl Şıxlının əsərlərinin, onun haqqında yazan müəlliflərin və tərcümələrin əlifba göstəriciləri verilmişdir.

Göstərici Azərbaycan və rus dillərində tərtib olunmuşdur.





## İsmayıl Şıxlının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin mart ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı nasir, tanınmış ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, Xalq yazıçısı İsmayıl Qəhrəman oğlu Şıxlının anadan olmasının 100 illiyi tamam olur.

İsmayıl Şıxlı koloritli xarakterlər və yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik surətlərlə zəngin yaradıcılığı ilə Azərbaycan xalqının bədii fikir salnaməsinə yeni parlaq səhifə yazmış söz ustalarındandır. Ədibin məşhur “Dəli Kür” romanı ictimai şüurda dönüşə və özünüdərkə yol açan mühüm ədəbi-mədəni hadisə kimi qiymətləndirilmişdir.Taleyüklü məsələlərə münasibətdə daim vətəndaş ziyalı mövqeyi nümayiş etdirmiş İsmayıl Şıxlının fəaliyyəti bütövlükdə azərbaycançılıq məfkurəsinə sədaqətin və ənənəvi dəyərlərə ehtiramın bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, müasir Azərbaycan ədəbiyyatının inkişafı naminə təqdirəlayiq xidmətlər göstərmiş Xalq yazıçısı İsmayıl Şıxlının anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 28 yanvar 2019-cu il**

## İsmayıl Şıxlının həyatı

Çətin günlərimdə mən səni anıb,
Köməyə səslədim duyan insanı.
Ariflər içində çoxdan yaranıb,
İnsanlıq dastanı-Şıxlı dastanı.

**Müzəffər Şükür,**
**şair**

İsmayıl Şıxlı... Bu ad çox şey deyir. Bu ad çəkilən zaman əsl müəllim, görkəmli alim, istedadlı yazıçı, kişi xarakterli bir insan yada düşür.

İsmayıl Qəhrəman oğlu Şıxlınski 1919-cu il martın 23-də Azərbaycanın Qazax rayonunun II Şıxlı kəndində müəllim ailəsində anadan olmuşdur. Kosalar kəndində ibtidai məktəbi bitirdikdən sonra Qazax pedaqoji məktəbində təhsil almışdır. Bir il Kosalar kənd orta məktəbində baş dəstə rəhbəri və müəllim işlədikdən sonra APİ-nin dil və ədəbiyyat fakültəsində 1937-1941-ci illərdə təhsil almışdır. 1941-1942-ci illərdə Qazax rayonunun Kosalar kəndində dərs hissə müdiri işləmişdir.

İkinci Dünya müharibəsi başlandıqda İsmayıl Şıxlı Sovet ordusunun tərkibində ön cəbhələrdə-Şimali Qafqazda, Krımda, III Belorusiya cəbhəsində, Şərqi Prussiya istiqamətində düşmənə qarşı sıravi əsgər kimi vuruşmuşdur. Müharibədən tərxis edildikdən sonra altı ay Kosalar kənd məktəbində tədris hissə müdiri işləmişdir. 1946-1949-cu illərdə APİ-nin filologiya fakültəsinin aspirantı olmuş, müəllim, baş müəllim, xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri kimi fəaliyyət göstərmişdir. İsmayıl Şıxlı 1965-1968-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi, 1976-1978-ci illərdə "Azərbaycan" jurnalının baş redaktoru, 1981-1987-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, 1981-1987-ci illərdə SSRİ Yazıçılar İttifaqının katibi kimi çalışmışdır. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının sədri seçilmişdir.

Görkəmli nasir, ədəbiyyatşünas, publisist İsmayıl Şıxlı 1949-cu ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1954-cü ildə filologiya elmləri namizədi, 1976-ci ildə Azərbaycan komsomolu





mükafatı laureatı, 1984-cü ildə Azərbaycanın xalq yazıçısı, 1990-cu ildə Azərbaycan Respublikasının Ali Sovetinin Deputatı, 1991-ci ildə isə M.F.Axundov adına ədəbi mükafatın laureatı olmuşdur.

İsmayıl Şıxlı ictimai fəallığı ilə həmişə fərqlənmişdir. 1967-1969, 1983-cü illərdə Bakı Zəhmətkeş Deputatları Sovetinin deputatı, 1968-1970-ci illərdə Azərbaycan KP Bakı şəhər komitəsinin üzvü, Azərbaycan Həmkarlar Şurası Rəyasət Heyətinin üzvü, SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilmişdir. 1976-cı ildə xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyəti xəttilə Almaniya Demokratik Respublikasına, 1982-ci ildə Almaniya Federativ Respublikasına göndərilən Sovet nümayəndə heyətinin tərkibində olmuşdur. İsmayıl Şıxlı xidmətlərinə görə müxtəlif orden və medallarla təltif edilmiş, 1979-cu ildə "Qırmızı əmək bayrağı", 1985-ci ildə II dərəcəli "İkinci Dünya müharibəsi" orden və medallarını, 1973-cü ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanını almışdır.

İsmayıl Şıxlı Azərbaycan mühitinin XX yüzillikdə yetirdiyi nəhəng şəxsiyyətlərdən biridir. İstedadlı yazıçı 1995-ci il iyulun 26-da vəfat etmiş Fəxri Xiyabanda torpağa tapşırılmışdır.

## İsmayıl Şıxlının yaradıcılığı

> **İsmayıl Şıxlı həm yazıçı, həm müəllim, həm alim, həm ictimai xadim, həm də insan vətəndaş kimi böyük hörmət qazanmış, xalqımızın tarixində dərin iz, zəngin irs qoymuşdur. Bunların hamısı şübhəsiz ki, xalqımızın bu günü və gələcəyi üçün əvəzsiz sərvətlərdir.**
>
> **Heydər Əliyev,**
> **Ümummilli lider**

İsmayıl Şıxlı ədəbiyyata “Quşlar” şeiri ilə gəlmişdir. İsmayıl Şıxlını tanıyanlar onu şair gözləyirdilər. Ancaq o, nasir oldu. İsmayıl Şıxlı aspiranturada oxuduğu illərdə çoxlu mütaliə edir, öz üzərində çalışır, ara-sıra hekayələr, daha çox publisistik yazılar üzərində işləyirdi.

Mehdi Hüseynin məsləhəti ilə yazıçı yalnız gördüklərini, bildiklərini yazmağa başladı. Beləcə o, “Konserv qutuları”, “Həkimin nağılı”, “Səhəri gözləyirdik”, “Kerç sularında”, “Haralısan, ay oğlan?” və başqa hekayələrini, “Raykom katibi” kimi portret oçerklərini, yol qeydlərini və “Daşkəsən” adlı sənədli povestini yazır.

On ilə yaxın ən müxtəlif mövzularda hekayələr, publisistik əsərlər yazan İsmayıl Şıxlını geniş oxucu kütləsinə tanıdan, sevdirən 1955-ci ildə Azərbaycan jurnalında çap etdirdiyi “Ayrılan yollar” romanı oldu. “Ayrılan yollar” romanında 1941-45-ci illər müharibəsindən sonra Azərbaycanda gedən dirçəlişdən söhbət açılır. Romanda yazıçının təsvir etdiyi kənddə yeni dövrün İmran, Zeynəb, Nəsib kimi nümayəndələrinin köhnə fikirli Kosaoğlu, Kazım, Musa və Şahnaza qarşı çıxmalarından bəhs olunur.

1962-ci ildə Azərbaycan jurnalında İsmayıl Şıxlının yeni “Dəli Kür” romanının I hissəsi çap olundu. Bu roman oxucuların hədsiz marağına səbəb oldu. Özünə-sözünə hörmət qoymaq, əsl ağsaqqal təmkini və ləyaqəti, təmsil elədiyi xalqın xarakterik xüsusiyyətlərini yaşatmaq bacarığı, cəngavər dönməzliyi,





düşdüyü bütün vəziyyətlərdə dədə-babaların mərdanəlik qanunlarını pozmamaq Cahandar ağanın simasında ümumiləşdirilib. İsmayıl Şıxlı Cahandar ağa kimi son dərəcə sanballı, ölməz bir obraz yaratmağa müvəffəq olmuş, Azərbaycan ədəbiyyatı xəzinəsinə “Dəli Kür” kimi başdan-ayağa milli ruhla aşılanmış dəyərli bir roman vermişdir. Bütün daxili ziddiyyətlərinə baxmayaraq, əsərin baş qəhrəmanı Cahandar ağa hamını əfsunlamışdı. “Dəli Kür” romanı Azərbaycan ədəbiyyatının XX yüzillikdə yaranmış ən qiymətli nümunələrindən, bədii sözümüzü dünya miqyasında artıran əsərlərdən biri olmuşdur.

İsmayıl Şıxlı yaradıcılığının əsas istiqamətlərindən biri də əfsanə və rəvayətlər əsasında yazdıqlarıdır. O, xalq arasında yayılmış əfsanə və rəvayətləri mövzu kimi seçmiş, bu mövzulara yeni nəfəs vermiş, poetik, oxunaqlı bir formaya salmış, Azərbaycan dilinin, eləcə də söz sənətinin imkanları baxımından işləmişdir. İsmayıl Şıxlı burada xalqdan öyrəndiklərini xalqın özünə qaytarmaqla həm xalqın yazdıqlarını yaşatmış, həm də özünün bədii təxəyyülünü əsl yazıçı səviyyəsində təqdim etməyi bacarmışdır. Onun 1990-cı ildə çap olunmuş “Sapı özümüzdəndir” kitabında toplanmış əfsanə və rəvayətlər əsasında yazdıqlarının hər biri özündən qaynaqlanır. Bununla da İsmayıl Şıxlı xalqa bağlı olduğunu təsdiq etməklə yanaşı, xalqın yazdıqlarını yaşatmış, ona qol-qanad vermiş, təzə təravət gətirmişdir. Xalqın yaratdığı əfsanə və rəvayətlərin motivləri əsasında “Məni itirməyin”, “Sapı özümüzdəndir”, “Sənə “aslanım” deyən”, “Dəvəçi”, “Şahın oğlu”, “İlğım”, “Ruzu”, “Keçəçi”, “Bəs zınqırovu kim asacaq?”, “Xasiyyətimdir”, “Xoruzbeçə”, “Belə məmləkətdə” əfsanə və rəvayətlərini yazmışdır.

İsmayıl Şıxlı yaradıcılığının qürub çağında qələmə aldığı son əsəri “Ölən dünyam” romanıdır. “Ölən dünyam” forma baxımından İsmayıl Şıxlının əvvəlki iki romanından xeyli fərqlənir. Nisbətən kiçik həcmli bu əsərdə yazıçı əsas süjet xətti ilə bağlı müxtəlif hadisələri paralel inkişaf etdirmək hesabına və konkret zaman çərçivələrini cəsarətlə pozaraq, gah irəli-gələcəyə gedib, gah da geri-keçmişə qayıtmaq sayəsində iki böyük nəslin

taleyini izləməyə və ölkənin siyasi mənzərəsini verməyə müvəffəq olur.

"Ölən dünyam" romanı çox dəqiq tapılmış və böyük ustalıqla qələmə alınmış simvolik bir sonluqla bitir. Əsərin qəhrəmanlarından biri, elindən-obasından didərgin düşmüş Həsən ağa uzun illərin ayrılığından sonra dönüb yurduna qayıdır, çinar ağacının altında oturub kürəyini onun gövdəsinə söykəyir və gözlərini yumub bir zamanlar öz əli ilə əkdiyi bu əzəmətli ağacın rişələri ilə əbədi olaraq doğma torpağına qovuşur.

İsmayıl Şıxlı macal tapıb "Ölən dünyam" romanını bitirməklə 50 illik yaradıcılıq yoluna da yekun vurdu. Və sanki bundan sonra o da qəhrəmanı Həsən ağa kimi rahatlıq tapıb dünyasını dəyişdi, əbədiyyətə qovuşdu.

Bütün ömrü boyu həqiqət, düzgünlük axtarışında olan, yaradıcılıq nümunələrində insanı uca tutaraq böyük xarakterlər yaradan, xeyrin qələbəsinə, haqq ədalətin qələbəsinə çalışan, xalqa arxalanan sənətkarı xalq da unutmur. İsmayıl Şıxlı həmişə xalqın yaddaşındadır, milli dəyərlərimizin qorunmasına çıraq tutan, qəlbə yaxın əsərləri var olduqca da yaddaşlarda yaşayacaqdır





## İsmayıl Şıxlının həyat və yaradıcılığının əsas tarixləri

| | |
|---|---|
| **1919, 22 mart** | Şıxlınski İsmayıl Qəhrəman oğlu (İsmayıl Şıxlı) Qazaxın ikinci Şıxlı kəndində müəllim ailəsində anadan olmuşdur. |
| **1933-1936** | Kosalar kəndində ibtidai məktəbi bitirib Qazax pedaqoji məktəbində təhsil almışdır. |
| **1928** | Qazax rayonunun Kosalar kənd orta məktəbinə daxil olmuşdur. |
| **1934-1936** | Qazax pedaqoji texnikumunda oxumuşdur. |
| **1935** | Lenin komsomolu sıralarına daxil olmuşdur |
| **1936-1937** | Kosalar kənd məktəbində müəllimlik etmişdi |
| **1937-1941** | Azərbaycan Pedaqoji İnstitutunda dil və ədəbiyyat fakultəsində təhsil almışdır. |
| **1938** | "Quşlar" adlı ilk şeiri "Ədəbiyyat" qəzetində dərc edilmişdir. |
| **1941-1942** | Qazax rayonunun Kosalar kəndində dərs hissə müdiri işləmişdir. |
| **1941-1942** | Qazax rayonunun Birinci Şıxlı, Daş Salahlı Kosalar kənd məktəblərində direktor və dərs hissə müdiri vəzifələrində çalışmışdır |
| **1942, sentyabr** | Qızıl ordu sıralarına getmişdir. |
| **1945** | "Qırmızı ulduz" ordeni ilə təltif olunmuşdur. |
| **1945** | Sov.İKP üzvlüyünə qəbul edilmişdir. |

| | |
|---|---|
| **1945, noyabr** | Cəbhədən geri dönmüşdür. |
| **1946** | Kosalar kənd orta məktəbində tədris hissə müdiri işləmişdir. |
| **1946** | V.İ.Lenin adına APİ-nin aspiranturasına daxil olmuşdur. |
| **1946-1949** | APİ-nin indiki ADPU-nun filologiya fakultəsinin aspirantı olmuşdur. |
| **1947** | Ədəbi yaradıcılığa “İnqilab və mədəniyyət” jurnalında çap etdirdiyi “Həkimin nağılı” hekayəsi ilə başlamışdır. |
| **1949** | Azərbaycan Yazıçılar İttifaqının üzvü olub. |
| **1949** | V.İ.Lenin adına APİ-də müəllimlik fəaliyyətinə başlamışdır. |
| **1949** | SSRİ Yazıçılar İttifaqının üzvlüyünə qəbul olunmuşdur. |
| **1950** | Azərnəşr İ.Şıxlının “Kerç sularında” adlı kitabını nəşr etdirir. |
| **1951** | “Dağlar səslənir” povesti “Uşaqgəncnəşr”də çap edilmişdir. |
| **1954** | Filologiya elmləri namizədi adına layiq görülmüşdür. |
| **1954-1955** | “Ayrılan yollar” adlı ilk romanını yazmışdır. |
| **1959** | “Dəli Kür” romanından ilk dəfə bir parça çap olunmuşdur. |
| **1965-1967** | Azərbaycan Yazıçılar İttifaqının katibi vəzifəsində çalışmışdır. |





| | |
|---|---|
| **1965-1968** | Azərbaycan Yazıçılar İttifaqının Katibi vəzifəsində çalışmışdır. |
| **1967** | Bakı Zəhmətkeş Deputatları Sovetinin deputatı seçilmişdir. |
| **1968** | “Dəli Kür” romanı kitab şəklində çapdan çıxmışdır. |
| **1968-1970** | Azərbaycan KP Bakı şəhər komitəsinin üzvü seçilmişdir. |
| **1969** | Bakı Zəhmətkeşləri Deputatları Sovetinin deputatı seçilmişdir. |
| **1971** | “Şərəf nişanı” ordeni ilə təltif edilmişdir. |
| **1971** | “Seçilmiş əsərləri” iki cilddə çap olunmuşdur. |
| **1971** | “Dəli Kür” Moskvada «Советский писатель» nəşriyyatında çap olunmuşdur. |
| **1972** | V.İ.Lenin adına APİ-də yaradılmış rus və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri seçilmişdir. |
| **1973** | Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir. |
| **1974** | “XX əsr xarici ədəbiyyat tarixi” adlı dərs vəsaiti çap edilmişdir. |
| **1976** | Xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin xətti ilə Almaniya Federativ Demokratik Respublikasına göndərilən Sovet nümayəndə heyətinin tərkibində olmuşdur. |
| **1976** | Azərbaycan komsomolu mükafatı laureatı adını almışdır. |

**1976** “Nə yaxşı ki, dünyada Səməd Vurğun var” adlı tammetrajlı, geniş ekranlı bədii-sənədli filmin ssenarisinə görə Azərbaycan Lenin komsomolu mükafatına layiq görülmüşdür

**1976-1978** “Azərbaycan” jurnalında baş redaktor vəzifəsində işləmişdir.

**1977** “Azərbaycan” jurnalının baş redaktoru təyin olunmuşdur.

**1979** Anadan olmasının 60 illiyi geniş qeyd edilmiş, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**1980** “Dəli Kür” romanı gürcü dilində Tbilisidə kitab şəklində çapdan buraxılmışdır.

**1981-1987** Azərbaycan Yazıçılar ittifaqının birinci katibi, həmçinin SSRİ Yazıçılar İttifaqının katibi olmuşdur.

**1982** M.F.Axundov adına Milli Kitabxana yazıçı İsmayıl Şıxlının həyat və yaradıcılığına dair biblioqrafik göstərici hazırlamışdır.

**1983** Bakı Zəhmətkeşləri Deputatları Sovetinin deputatı seçilmişdir.

**1984** Azərbaycanın Xalq yazıçısı adına layiq görülmüşdür.

**1985** İkinci dərəcəli “İkinci Dünya müharibəsi” ordeni ilə təltif edilmişdir.

**1985** Böyük Vətən müharibəsi ordeni ilə təltif edilmişdir.





**1990** Azərbaycan Respublikasının Ali Sovetinin deputatı seçilmişdir.

**1991** M.F.Axundov adına ədəbi mükafatın laureatı olmuşdur.

**1991** Ağsaqqallar Şurasının sədri seçilmişdir.

**1994** “Şöhrət” ordeni ilə təltif edilmişdir.

**1995, 26 iyul** Bakıda vəfat etmiş, Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

**2007, 30 may** Qazax şəhərinin mərkəzində Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan parkın və ədibin abidəsinin açılışı olmuşdur.

**2011, 7 may** Xalq yazıçısı İsmayıl Şıxlının xatirə baralyefi açılmışdır.

## İsmayıl Şıxlının düşüncə karvanı

Dostluq olmadan, qayğı olmadan, aydınlıq olmadan, inam və əqidəyə arxalanmadan cəmiyyəti irəli aparmaq qeyri-mümkündür.

***

Müəllimlik çox müqəddəs, ülvi və çətin bir sənətdir. Bu elə bir sənətdir ki, cəmiyyət ona hələ dünya görüşü, həyat anlayışı formalaşmayan, pak, təmiz bir nəslin, öz gələcəyinin tərbiyəsini tapşırır.

***

Mənə elə gəlir ki, biz xalqımızın gələcəyini, iyirmi-iyirmi beş ildən sonrakı vəziyyətini unutmamalıyıq. Əgər həkimlərin, mühəndislərin, alimlərin, müəllimlərin sırasında təsadüfi adamlar, savadsızlar, əliəyrilər çoxalırsa, bizim çıxarımız nə olar? Məhz bu kimi halların baş verməməsi üçün biz elm aləminin saflığı uğrunda vuruşmalıyıq.

***

Bizim gənclər açıqfikirlli, fövqəladə zəka və bacarığa sahib gənclərdir.

***

Tənqidin özünün səviyyəsi yüksək olmalıdır. Tənqidin özünün qayəsi, məqsədi, yüksək estetik tələbi, fəlsəfi duyuşu olmalıdır. Tənqidin aparıcı, istiqamətverici, təşkiledici gücü, qüdrəti olmalıdır.

***

Hər bir xalqın varlığını təsdiq edən amillərdən biri dildir. Dil istər leksik, istərsə də sintaktik, morfoloji cəhətdən köhnələn ünsürlərini atır və təbii olaraq təzələrini qəbul edir.

***

Dil yazıçı qüdrətinin nəhəng daşıdır. Dil səciyyələri açmaqda yazıçıya kömək edən ən yaxşı vasitədir. Dil sadəcə cümlə üzvlərinin qrammatik qayda-qanunlar arasında düzülüşü demək deyil, dil yazıçı üçün ehtirasları toqquşduran, surətin daxili varlığı ilə intellektual aləmini aşkara çıxaran bir vasitədir.





Aşıq yaradıcılığı bütün tarixi boyu xəlqi bir yaradıcılıq olmuşdur. Onun bütün kökləri xalqa bağlıdır. Xalqa xidmət edən, onunla bağlı olan bir yaradıcılığın əbədiliyi isə təbiidir.

***

Müasir mövzuda nəsr əsərləri yazmaq geoloji axtarışlara bənzəyir. Burada büdrəmələr də ola bilər, qazılan quyu neft verməyə də bilər. Buna görə axtarışı dayandırmaq olmaz. Çünki müasirlik həmişə yeni axtarışlarla vəhdətdə olmuşdur.

***

Bizim ədəbiyyatımız zəngin ədəbiyyatdır. Xalqımız şairanə xalqdır. Obraz, təfəkkür, obrazlı ifadə tərzi, adi danışıqda belə poetik ifadələr, işlətmək, müdrik atalar sözünə, bayatılara müraciət etmək hər bir azərbaycanlıya xas olan cəhətdir.

***

Tarixsiz xalq yoxdur. Xalqı yaşadan amillərdən biri onun tarixidir.

***

Tarixin özü qayğı tələb edir. Yaşamaq və bəşəriyyətin inkişafında öz mövqeyini müəyyənləşdirmək üçün hər xalq, hər millət öz tarixini bilməlidir.

***

Yazıçı keçdiyi həyat yolunu, gördüklərini, müşahidə etdiklərini, duyduqlarını, sevincini, iztirab və əzablarını bu və ya digər əsərində, bu və ya digər surətin timsalında, təsvir etmişdir.

***

Yazıçının beyni, idrakı nəticələr, qəlbi həyatı dərketmə üsulları, zəmanəsinə münasibəti əsərlərinə səpələnir.

***

Ziyalı hər şeydən əvvəl mənəvi kübar olmalıdır. Bu kübar onun zahiri əlamətləri ilə yox, mənəvi zənginliyi ilə şərtləşməlidir. Bu mənəvi zənginliyi isə mən ilk növbədə, onun yüksək amalında görürəm. Torpağa bağlılığı, xalqa bağlılığı, mənsub olduğu millətə bağlılığı, yüksək insani-bəşəri hisslərə maliklik, özünü sözdə yox, həqiqi mənada millətinin, xalqının zərrəsi hesab etmək, onunla birgə yaşamaq ziyalının amalı olmalıdır. Və nəhayət həqiqi ziyalı özünü unutmağı, özünü fəda etməyi bacarmalıdır.

***

Müəllim öz xalqı, vətəni, millətinin gələcəyi üçün qəlbini məşəl kimi yandıran, varını, dövlətini on minlərlə tələbənin yetişməsində görən, bu yolda şəxsi məhrumiyyətlərə belə dözən fədakar insan olmalıdır.

***

İnsanın mövcudiyyəti onun fəaliyyəti ilə  şərtləşir. İnsanın həyatda öz yerini tapması, öz potensial qüvvəsindən heç olmazsa minimum istifadə edə bilməsi və buna şərait yaradılması məsələsi cəmiyyətin əsas qayğılarından biridir.





## İsmayıl Şıxlı haqqında görkəmli şəxslərin fikirləri

İsmayıl Şıxlının əsərlərindən gənclərimizin, hər bir Azərbaycan vətəndaşının aldığı təəssürat anları milli azadlıq ruhunda tərbiyə edibdir, bu ruhda püxtələşibdir, vətənpərvər kimi yetişibdir və xalqımızı elə bir səviyyəyə çatdırıbdır ki, o öz milli azadlığını və müstəqilliyini əldə edibdir.

**Heydər Əliyev,**
**Ümummilli lider**

İsmayıl Şıxlı bildiyi həyatdan yazır. Əsərdəki ictimai həyat səhnələri, xalqın adətləri, təbiət mənzərələri, yazıçının göz açdığı gündən gördüyü, sevdiyi, tanıdığı səhnələr, adətlər və mənzərələrdir. İsmayıl Şıxlı Azərbaycan klassik və sovet ədəbiyyatının yaxşı ənənələrini öyrənmiş, mənimsəmiş və onlara sadiq qalmağa çalışmışdır.

**M.İbrahimov,**
**Xalq yazıçısı**

Şıxlı  “Müəllimin  almaları” adlı bir yaxşı hekayə yazmışdır. Bu hekayənin yazılışı, dili, təsvir olunan hadisə maraqlı və səlisdir.

**R.Rza,**
**Xalq şairi**

İsmayıl Şıxlı xalq ürəkli, xalq dilәkli yazıçılardandır. Onun da bir əli xalqının əlində, o biri əli dünyanın, gedişatın nəbzindədir. Gözü itidir, duyğusu dərindir, həyatla əlaqəsi daimi və möhkəmdir.

**Bayram  Bayramov,**
**Xalq yazıçısı**

İsmayıl Şıxlı öz həyat və fəaliyyətində olduğu kimi, ədəbi mühitə münasibətində də ali, ülvi duyğularla, qayğıkeşliklə, sənətə düz qiymət verməklə inam, əqidə və məslək sahibi olmaqla ədəbi mühitin inkişaf etməsinə xidmət göstərmişdir.

**Buludxan Xəlilov,**
**Filologiya elmləri doktoru, professor**

İsmayıl Şıxlı üslubu əsil müasir üslubdur və bu üslub epik sakitliyi, təmkini ilə başqalarından seçilir.

**Qulu Xəlilov,**
**Filologiya elmləri doktoru**

Bizim çoxumuz, ali məktəb müəllimləri, zamanın havasına uyduq, təmiz adımızı qoruya bilmədik. İsmayıl Şıxlı isə bu adı ürəyi kimi təmiz saxladı.

**Qulu Xəlilov,**
**Filologiya elmləri doktoru, professor**

İsmayıl Şıxlı Azərbaycan xalqının həyat və məişətinə, milli adət-ənənələrinə, milli ruh və psixologiyasına, onun varlığını təşkil və təmsil edən milli-mənəvi dəyərlərə dərindən bələd yazıçı idi.

**Yaqub İsmayılov,**
**Professor**

İsmayıl Şıxlı elə ədəbi şəxsiyyətlərdəndir ki, öz yaradıcılığı ilə istedad orijinallığı ilə Azərbaycan nəsrinin böyük hadisəsinə çevrildi.

**Məhərrəm Hüseynov,**
**Professor**

İsmayıl Şıxlı realist yazıçıdır və əlinə qələm aldığı dövrdən zəmanəsinin gerçəklərini təsvir edibdir.

**Sabir Azəri,**
**Nasir, tərcüməçi**

Azərbaycan ədəbi-mədəni, ictimai-estetik təfəkküründə İsmayıl Şıxlı obrazı yazıçının yaratdığı obrazlardan, əgər belə demək mümkündürsə, daha mükəmməl, daha məşhur, daha bədiidir... O, həyatı, fəaliyyəti, yaradıcılığı ilə təkrarsız bir obraz-İsmayıl Şıxlı obrazı, qeyri-adı metafora- İsmayıl Şıxlı metaforası yaratdı.

**Nizami Cəfərov,**
**Filologiya elmləri doktoru**





İsmayıl Şıxlı bizim haqq deyən, haqq söyləyən, ədalət söyləyən ziyalımızdır.

**Yusif Səmədoğlu,**
**Xalq yazıçısı**

İsmayıl Şıxlının sənətkarlıq qüdrəti orasındadır ki, o öz oxucusunu indiki düşüncə tərzindən qopararaq köhnə kəndin qəribə, özünəməxsus mənzərəsini xəyalən təsəvvür etməyə, nəinki təsəvvür etməyə, həmdə mütəəssir olmağa təhrik edir.

**Ə.Hüseynov,**
**Filologiya elmləri doktoru**

İsmayıl Şıxlı elə sənətkar idi ki, təsvir etdiyi hər hansı bir dövrü bütün ictimai-mənəvi aspektləri, təmayülləri ilə bədii reallığa çevirirdi.

**Vaqif Yusifli,**
**Filologiya elmləri doktoru**

İsmayıl Şıxlı böyük insan, böyük sənətkar və müəllim idi... İsmayıl Şıxlı mədəniyyət tariximizdə yazıçı, pedaqoq, ictimai xadim kimi özünə şərəfli yer qazanmışdır.

**Paşa Əfəndiyev,**
**Filologiya elmləri doktoru, professor**

İsmayıl Şıxlı yalan dünya ilə haqq dünyasını, maddiyyat düşüncələri ilə mənəvi paklığı uca tutanları, iblislərlə munisləri qarşılaşdırmaqla oxucularını əsl mətləblərdən agah edir, onların düşüncə sferasını genişləndirir və dərinləşdirir.

**Nikolay Qasımov,**
**Filologiya elmləri doktoru, professor**

İsmayıl Şıxlının əsgər gündəliyində elə cəhətlər var ki, onu nə qəzetdə, nə kitabda oxuya bilərsən, nə ən qaynar fantaziya belə onu doğura bilməz. Bu cahanşümul hadisələrin fəal iştirakçısının təcrübəsidir. Bu gündəlik ön xətlərdən biridir ki, hərbi mövzular buradan yeni zirvələrə qalxmağa başlamalıdır.

**İvan Tretyakov,**
**Publisist, nasir, tənqidçi**

## İsmayıl Şıxlıya həsr olunmuş şeirlər

Mərifət dəryası, ağıl ocağı
Dağlardan vüqarlı İsmayıl Şıxlı,
İstinad nöqtəsi, ümid bucağı,
Haqq qapı açarı İsmayıl Şıxlı

***

Əl çatmayan dahi, müəllim
Min-min rəhmət sənə, Allahdan Kərim
Qəmginəm acizdir zərif qələmim
Əbədi yaşardı, İsmayıl Şıxlı

**Elbrus Mustafa,**
**şair**

***

Güneydən yazmağa varaq axtarır,
Təbrizə nur saçan çıraq axtarır,
Qələmlə silahlı İsmayıl Şıxlı

**Abbas Abdulla,**
**şair**

***

Dünya bir pəncərədi, İsmayıl baxdı getdi,
Qılınc kimi parladı, Gün kimi şaxdı getdi,
"Dəli Kür" qoydu getdi, Dəli Kürə bərabər
Bir əsrin ağrısıydı, yanğısıydı bu əsər.

**Nəriman Həsənzadə,**
**Xalq şairi**





## İsmayıl Şıxlının əsərləri

### Kitabları

İsmayıl Şıxlının öz əsərlərində yaratdığı vüqar əzəmət, kimlik timsalı olan obrazların ən yaxşılarında o böyük yazıçının, fədakar insanın öz xasiyyət və xarakterindən xəyallarımızda artıq heykəlləşməsi boy-buxunundan simasından səciyyəvi bir əlamət idi.

**Bəkir Nəbiyev,**
**Akademik**

### 1950

**1. Kerç sularında :** Povest /İ.Şıxlı – Bakı : Azərnəşr, 1950. – 137 s.

### 1951

**2.Dağlar səslənir :** Povest / İ.Şıxlı – Bakı : Uşaqgəncnəşr, 1951. – 125 s.

### 1953

**3. Daşkəsən :** Roman /İ.Şıxlı – Bakı : Uşaqgəncnəşr, 1953. – 41 s.

### 1957

**4. Ayrılan yollar :** Roman /İ.Şıxlı – Bakı : Uşaqgəncnəşr, 1957. – 256 s.

### 1968

**5.Dəli Kür :** Roman /İ.Şıxlı – Bakı : Gənclik, 1968. – 448 s.

### 1970

**6. XVIII əsr xarici ədəbiyyat tarixi :** Dərs vəsaiti /İ.Şıxlı – Bakı : APİ, 1970. – 146 s.

## 1971

**7. Seçilmiş əsərləri :** 2 cilddə. I cild : Roman, hekayələr, oçerklər /İ.Şıxlı – Bakı : Azərnəşr, 1971. – 364 s.

**Kitabın içindəkilər : Hekayələr :** Konserv qutuları ; Həkimin nağılı ; Səhəri gözləyirdik ; Kerç sularında ; Haralısan, ay oğlan?. **Oçerklər :** Raykom katibi ; Daşkəsən ; Ayrılan yollar (roman).

**8. Seçilmiş əsərləri :** 2 cilddə. II cild : Roman /İ.Şıxlı – Bakı : Azərnəşr, 1971. – 444 s.

**Kitabın içindəkilər :** Dəli Kür.

## 1974

**9. XX əsr xarici ədəbiyyat tarixi** /İ.Şıxlı – Bakı : Maarif, 1974. – 256 s.

## 1975

**10.Mənim rəqibim :** Hekayələr /İ.Şıxlı – Bakı : Gənclik,, 1975. – 192 s.

**Kitabın içindəkilər :** Qonaq ; Köynək ; Çiskin ; Möhür basdım get ; Əmioğlu ; Nəyə əl çaldılar ? ; Zərbə ; Cərimə ; Qara at ; İclasçı ; Sənə aslanım deyən (əfsanə) ; Məni itirməyin (əfsanə) . **Kerç sularında :** Həkimin nağılı ; Səhəri gözləyirdik ; Haralısan, ay oğlan ? ; Konserv qutuları ; Bir əsgərin gündəliyi.

## 1977

**11. Dəli Kür :** Roman /İ.Şıxlı – Bakı : Gənclik, 1977. – 408 s.

## 1980

**12. Xatirəyə dönmüş illər :** Xatirələr və məqalələr /İ.Şıxlı – Bakı : Yazıçı, 1980. – 366 s.

**Kitabın içindəkilər :** Qranit kimi sərt ; Onun səsi qulağımızdadır ; Məmməd Aranlı ; Xatirəyə dönmüş illər ; Həmişə mövzular axtarışında ; Cəbhə gündəlikləri. **Məqalələr, rəylər, çıxışlar :** Gənc nasirlər haqqında ; Janrın tələbləri ; Gözəl təşəbbüs ; Aşıq yaradıcılığı haqqında ; “Aygün” ekranda ; Azadlıq, bərabərlik və ədalət carçısı; Sənət xalqla birgə nəfəs almalıdır ; Azadlığın üsyanlar carçısı ; Qardaşlıq nəğməkarı ; Mehdi Hüseyn ; Səməd Vurğun yenə sıramızdadır ; Hər şeydən əvvəl ; Səmimi yazıçı, Həssas insan ; Tofiq Bayrama açıq məktub ; Şeirlər və alqışlar ; Ədəbiyyatda müasirlik ; Böyük sənətkarın tələbləri ; “Faust” Azərbaycan dilində ; İnsana məhəbbət ; Ədəbi tənqidimizin vəziyyəti haqqında ; Ülviyyəti qorumalı ; Ürəklərə yol tapmalı ; Dahiyanə sadəlik ; Laçının qəribəliyi nədədir ; Vladimir Alekseyeviç Solouxin ; Müharibə və insan.





## 1982

**13. Dəli Kür :** Roman /İ.Şıxlı – Bakı : Yazıçı, 1982. – 435 s.

## 1984

**14. Məni itirməyin :** Hekayələr, əfsanələr rəvayətlər, xatirələr, cəbhə gündəlikləri /İ.Şıxlı – Bakı : Gənclik, 1984. – 364 s.

**Kitabın içindəkilər :** Qızıl ilan ; Görüş ; Namus qaçağı. **Mənim rəqibim :** Köynək ; Çiskin ; Zərbə ; Qara at ; Qonaq ; Cərimə ; Əmioğlu ; Nəyə əl çaldılar? ; Möhür basdım get ; İclasçı. Kerç sularında ; Həkimin nağılı ; Səhəri gözləyirdik ; Haralısan, ay oğlan ? ; Konserv qutuları. **Əfsanələr və rəvayətlər :** Məni itirməyin ; Sənə aslanım deyən ; Şahın oğlu ; Onu danışdıran var ; 4 İlğım ; Ruzu ; Dəvəçi ; Keçəçi ; Bəs zınqırovu kim asacaq ? ; Xasiyyətimdir ; Sapı özümüzdəndir ; Niyə ağlayırsan? ; Xoruz beçə. **Xatirələr :** Qranit kimi ; Onun səsi quıağımızdadır ; Məmməd Aranlı ; Xatirəyə dönmüş illər ; Həmişə mövzular axtarışında ; Çin olmuş arzular. ; Cəbhə gündəlikləri .

## 1985

**15. Cəbhə yolları :** Cəbhə xatirələri /İ.Şıxlı – Bakı : Gənclik, 1985. – 186 s.

**Kitabın içindəkilər :** Müəllifdən ; Dəmirqapı Dərbənd ; Şabanov yoxuşları ; Kuban sahillərində ; Ah, Qara dəniz ! ; Siz ey cəbhə yolları! .

## 1986

**16. Seçilmiş əsərləri :** 2 cilddə. I cild : Roman, sənədli povest, hekayələr /İ.Şıxlı. – Bakı : Azərnəşr, 1986. – 480 s.

**Kitabın içindəkilər :** Ayrılan yollar ; Cəbhə yolları. **Hekayələr :** Konserv qutuları ; Həkimin nağılı ; Səhəri gözləyirdik ; Kerç sualarında ; Haralısan, ay oğul? ; Çiskin ; Qara at ; Qonaq ; Mənim rəqibim ; Köynək ; Möhür basdım, get ! ; Əmioğlu ; Nəyə əl çaldılar? ; Zərbə ; Cərimə ; İclasçı.

**17. Seçilmiş əsərləri :** 2 cilddə. II cild : Roman, əfsanələr, rəvayətlər /İ.Şıxlı – Bakı : Azərnəşr, 1986. – 480 s.

**Kitabın içindəkilər :** Dəli Kür (roman). **Əfsanələr və rəvayətlər :** Məni itirməyin ; Sənə aslanım deyən ; Şahın oğlu ; Onu danışdıran var ; İlğım ; Ruzu ; Dəvəçi ; Keçəçi ; Bəs zınqırovu kim asacaq? ; Xasiyyətimdir ; Sapı özümüzdəndir ; Niyə ağlayırsan? ; Xoruzbeçə. **Hekayələr :** Qranit kimi sərt ; Qızıl ilan ; Görüş ; Namus qaçağı.

## 1988

**18. Daim axtarışda :** /İ.Şıxlı – Bakı : Yazıçı, 1988. – 357 s.

## 1990

**19. Sapı özümüzdəndir :** Əfsanələr və rəvayətlər /İ.Şıxlı – Bakı : Gənclik, 1990. – 64 s.

**Kitabın içindəkilər :** Məni itirməyin ; Sapı özümüzdəndir ; Sənə aslanım deyən ; Dəvəçi ; Şahın oğlu ; İlğım ; Ruzu ; Keçəçi ; Bəs zınqırovu kim asacaq? ; Xasiyyətimdir ; Xoruz beçə ; Belə məmləkətdə.





## 1991

**20. Dostum Hüseyn Arifin lətifələri** /İ.Şıxlı – Bakı : Kirpi jurnalının redaksiyası və Azərbaycan nəşriyyatı, 1991. – 48 s.

**21. Namərd gülləsi :** Hekayələr, xatirələr /İ.Şıxlı – Bakı : Yazıçı, 1991. – 230 s.

**Kitabın içindəkilər : Hekayələr :** Məleykə xala ; Qızıl ilan ; Namərd gülləsi ; Təyyarə gecikir ; Namus qaçağı ; Görüş ; Deputat. **Xatirəyə dönmüş illər :** Nə böyük dərd imiş şair yaranmaq ; "Ayrılan yollar" və…. ; Kərəmov yeriyər ; Əli müəllim.

## 1992

**22. Ölüləri qəbiristanda basdırın … :** Nəsr, ədəbi tənqid və publisistika /İ.Şıxlı – Bakı : Gənclik, 1992. – 272 s.

**Kitabın içindəkilər : Nəsr :** Ölüləri qəbiristanda basdırın ; Qətl ; Mənimlə getməlisən ; Son monoloq ; Aşığın yubileyi ; Dostum Hüseyn Arifin lətifələri ; Dostum Qabilin qəribə əhvalatları. **Ədəbi tənqid :** Yanar ürəklərin üsyanı ; Səbəb və nəticə ; Sənətkar möcüzəsi ; Həmişə yarpaq tökülür, həmişə yarpaq yaranır ; Məmməd Araza açıq məktub ; Uşaqlıq dünyasının vahiməsi;Zindandan keçən azadlıq yolu. **Publisistika :** O yerlər min xəyal eylər ; Güc qeyrətdədir ; Üç yolun ayrıcında ; Ana Kürüm, Dəli Kürüm ; Hamımız bir olmalıyıq ; Yurdumuzun sabahını düşünək ; Cəlladlarla bir partiyada olmaq istəmirəm ; Su axan yerdən bir də axar ; Düşmənçilik kimə gərək idi ? .

## 1995

**23. Ölən dünyam :** roman /İ. Şıxlı; red. İ. Qasımzadə, A. Hüseynova. **–** Bakı : Azərnəşr, 1995. – 152 s.

## 2004

**24. Dəli Kür :** Roman /İ.Şıxlı – Bakı : Pedaqogika, 2004. – 352 s.

## 2005

**25. Seçilmiş əsərləri :** 2 cilddə. I cild : Romanlar və povestlər /İ.Şıxlı – Bakı : Şərq-Qərb, 2005. – 408 s.

**Kitabın içindəkilər : Romanlar :** Ayrılan yollar ; Ölən dünyam. **Hekayələr :** Namus qaçağı ; Namərd gülləsi ; Ölüləri qəbiristanda basdırın.

**26. Seçilmiş əsərləri :** 2 cilddə. II cild : Roman /İ.Şıxlı – Bakı : Şərq-Qərb, 2005. – 400 s.

**Kitabın içindəkilər :** Dəli Kür

## 2008

**27. Dostum Qabilin qəribə əhvalatları** /İ.Şıxlı – Bakı : Şirvannəşr, 2008. – 78 s.

## 2009

**28. "Ölən dünyam" :** Roman /İ.Şıxlı – Bakı : 2009. – 497 s.

## 2014

**29. Dəli Kür :** Roman /İ.Şıxlı – Bakı : Qanun, 2014. – 512 s.

**30. Seçmə hekayələr** /İ.Şıxlı – Bakı : Altunkitab, 2014. – 208 s.





## Əsərləri məcmuələrdə

## 1959

**31. Konserv qutuları :** Hekayə /İ.Şıxlı Azərbaycan hekayələri. 2 cilddə. II cild. – Bakı : Uşaqgəncnəşr, 1959. – S.405-410.

## 1965

**32. Briqadanın bayramı :** Hekayə /Aslanov M. İfadə yazı mətnləri. – Bakı : Maarif, 1965. – S.63-64.

## 1975

**33. Cəbhə yolları :** Cəbhə xatirələrindən /İ.Şıxlı Alov saçan sətirlər. – Bakı : Azərnəşr, 1975. – S.279-284.

**34. Cəbhə yolları :** Cəbhə xatirələrindən /İ.Şıxlı Cəbhə yolları. – Bakı : Gənclik, 1975. – S.10-15.

## 1984

**35. Qızıl ilan :** Hekayə /İ.Şıxlı Hekayələr. – Bakı : Azərnəşr, 1984. – S.28-41.

## 2002

**36. Ədəbiyyatımızın aydın üfüqləri :** Xalq yazıçısı İ.Şıxlı ilə müsahibə /Mansurzadə A. Ədəbi portretlər. – Sumqayıt : Sumqayıt nəşriyyatı, 2002. – S.440-442.

## 2006

**37. Əzəldən qardaşdır ellərimiz :** Xalq yazıçısı İ.Şıxlı ilə Azərbaycanda keçiriləcək SSRİ xalqları poeziya günləri ilə bağlı müsahibə /Mansurzadə A. Ədəbi mülahizələr. – Sumqayıt : Sumqayıt nəşriyyatı, 2006. – S.214-216.

**38. Kerç sularında :** Hekayə /İ.Şıxlı Azərbaycan nəsri antologiyası. 5 cilddə. IV cild – Bakı : Şərq-Qərb, 2006. – S.161-178.

### 2012

**39. O yerlər min xəyal eylər :** Xalq yazıçısı İ.Şıxlı ilə müsahibə /Şıxlınski M. Ədəbiyyat tarixdir, tarix isə hər şeydir. – Bakı : Elm və təhsil , 2012. – S.38-56.





## Əsərləri dövrü mətbuatda

### 1970

**40. Çiskin ; Qara at :** Hekayələr /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1970. – 19 sentyabr. – S.8.

### 1973

**41. Bizim yeni il sorğumuz :** Yazıçının redaksiyanın suallarına verdiyi cavab /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1973. – 29 dekabr. – S.8.

**42. Mənim rəqibim :** Hekayə /İ.Şıxlı //Ulduz. – 1973. - № 12. – Dekabr. – S.1-2.

**43. Zərbə ; Möhür basdım get :** Hekayələr /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1973. – 8 dekabr. – S.8-9.

### 1974

**44. Qonaq ; Cərimə ; Əmioğlu :** Hekayələr /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1974. – 24 avqust. – S.8-11.

**45. Nəyə əl çaldılar? ; Köynək :** Hekayələr /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1974. – 9 fevral. – S.8-9.

### 1975

**46. Bir əsgərin gündəliyi :** Cəbhə gündəliyi /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1975. – 22 mart. – S.8-9 ; 29 mart. – S.8-9.

### 1977

**47. Ləpələn Kürüm, ləpələn :** Xalq yazıçısı İ.Şıxlı ilə müsahibə /M.Aslan //Ədəbiyyat və incəsənət. – 1977. – 27 avqust. – S.3.

## 1980

**48. “Dəli Kür”ün yeni nəğməsi :** Xalq yazıçısı İ.Şıxlı ilə gələcək planları haqqında müsahibə /M.Hüseynzadə //Kommunist. – 1980. – 2 sentyabr.

**49. İlğım ; Ruzi ; Şahın oğlu ; Əfsanələr /**İ.Şıxlı //Azərbaycan. – 1980. - Sentyabr. – S.54-64.

**50. Keçəçi ; Dəvəçi :** Hekayələr /İ.Şıxlı //Ulduz. – 1980. - № 8. – Avqust. – S.14-20.

**51. Onu danışdıran var :** Əfsanələr və rəvayətlər silsiləsindən /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1980. – 10 oktyabr. – S.4.

## 1981

**52. Niyə ağlayırsan? ; Sapı özümüzdəndir ; Xoruzbeçə :** Hekayələr /İ.Şıxlı //Ulduz. – 1981. № 6. – İyun. – S.36-40.

## 1982

**53. Görüş ; Namus qaçağı ; Qızıl ilan :** Hekayələr /İ.Şıxlı //Azərbaycan. – 1982. - № 7. – İyul. – S.75-98.

## 1985

**54. Sənə aslanım deyən … ; Məni itirməyin :** Əfsanələr /İ.Şıxlı //Azərbaycan. – 1985. - № 8. – Avqust. – S.160-165.

## 1987

**55. Namərd gülləsi :** Hekayə /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1987. – 20 noyabr. – S.4.

**56. Təyyarə gecikir :** Hekayə /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1987. – 4 sentyabr. – S.4.





## 1988

**57. Məleykə xala :** Hekayə /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1988. – 6 may. – S.4

## 1989

**58. “Ayrılan yollar” və ... :** Xatirələr /İ.Şıxlı //Azərbaycan. – 1989. - № 6. – İyun. – S.73-113.

**59. Deputat :** Hekayə /İ.Şıxlı //Ədəbiyyat və incəsənt. – 1989. – 19 may. – S.4.

## 1990

**60. Aşığın yubileyi ; Son monoloq :** Hekayələr /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1990. – 14 dekabr. – S.4.

**61. Əli müəllim :** Xatirələr /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1990. – 31 avqust. – S.3-6.

**62. Ölüləri qəbiristanlıqda basdırın :** Hekayə /İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1990. – 13 iyul. – S.4.

## 1991

**63. Qətl ; Mənimlə getməlisən :** Hekayələr /İ.Şıxlı //Ədəbiyyat qəzeti. – 1991. – 1 fevral. – S.7.

## 2011

**64. Ölüləri qəbiristanlıqda basdırın :** İki hissəli on bir şəkilli pyes /İ.Şıxlı //Azərbaycan. – 2011. - № 4. – Aprel. - S.7-23.

## 2014

**65. Belə məmləkətdə... :** hekayə /İ. Şıxlı // Ayna . – 2014. – 24 may.- S. 4

## İsmayıl Şıxlının tərcümələri

### Kitablarda

**1951**

**66. Kovalyov, P.** Andreyka : Povest /P.Kovalyov ; tərc. ed. İ. Şıxlı ; red. Y. Məmmədov. – Bakı : "Uşaqgəncnəşr", 1951. – 50 s.

**1961**

**67. Xarici ölkələr ədəbiyyatı kursunun orta əsrlər, intibah dövrü və XVII əsr ədəbiyyatı proqramı /**tərc. ed. İ. Şıxlı; red. M. Həyatzadə. – Bakı : "APİ", 1961. – 14 s.

**1963**

**68. Ən yeni dövr :** Xarici ölkələr ədəbiyyatı : 1871-1958 /tərc. ed. İ. Şıxlı ; red. M.Həyatzadə. – Bakı : 1963. – 47 s.

**1964**

**69. XIX əsr xarici ədəbiyyat tarixi :** Dərslik /tərc. edən . İ..Şıxlı – Bakı : "Azərtədrisnəşr", 1964. – 654 s.

**1975**

**70. Tretyakov, İ.** Moravbadan uzaqlarda : Povestdən parça /İ Tretyakov; rus dilindən tərc.İ Şıxlı .– Bakı : "Azərnəşr". – 1975. – S.285-297.

**1980**

**71. Mopassan, G.** Hekayələr və novellalar /G.Mopassan, tərc. edənlər. İ.Şıxlı; H.Qocayev. – Bakı : "Yazıçı", 1980. – 182 s.





**1981**

**72. Nesin, Ə.** Taxtalıköydən məktublar : Satirik məktublar / Ə.Nesin ; türk dilindən tərc. İ.Şıxlı. – Bakı :"Yazıçı", 1981.– 126 s

**1988**

**73. Nesin, Ə.** Taxtalıköydən məktublar : Satirik hekayələr /Ə.Nesin ; tərc. ed. İ.Şıxlı. – Bakı : "Gənclik" , 1988. – S.4-75.

**74. Nesin, Ə**. Futbol kralı: Roman/ Ə.Nesin; tərc. ed. İ. Şıxlı, E. Şıxlı ; red. Z. Cavanşir- Bakı : "Gənclik" , 1988.

**1989**

**75. Mopassan, G.** Gombul ; Eybəcərlər anası ; Qadın etirafı ; Boyunbağı : Novellalar /G.Mopassan ; tərc.ed. İ.Şıxlı. – Bakı : "Yazıçı" , 1989. – S.282-342.

**76. Mopassan, G.** Roman. Novellalar /G. Mopassan ; red. hey. H. Abbaszadə; tərc ed. İ. Şıxlı, Ə. Gözəlov, H. Qocayev. – Bakı : "Yazıçı" , 1989.

**2006**

**77. Mopassan, G.** Hekayələr və novellalar /G.Mopassan; tərc. ed. İ. Şıxlı, H. Qocayev. – Bakı: "Şərq-Qərb", 2006. – 176 s.

**2013**

**78. Türk xalqları ədəbiyyatı antologiyası :** 3 cilddə. I cild. /tərc.ed.: İ.Şıxlı ; burax. məsul S. İsmayılova ; baş red. S. Bektaşi. – Bakı :" Şərq-Qərb", 2013. – 460 s.

**2015**

**79. Mopassan, G.** Seçmə hekayələr : / G.Mopassan. ; tərc. ed.: İ. Şıxlı, H. Qocayev, E. ; red. F. Şıxlinski. – Bakı : "Altunkitab", 2015. – 207 s.

## Dövrü mətbuatda

### 1973

**80. Solouxin, V.** Sərəncam : Hekayə /V.Solouxin, rus.dilindən tərc.ed. İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1973. – 27 oktyabr. – S.8-9.

**81. Solouxin, V.** Sərəncam : Hekayə /V.Solouxin, rus dilindən tərc.ed. İ.Şıxlı //Ulduz. – 1973. - № 2. – Fevral. – S.1-23.

### 1975

**82. Solouxin, V.** Qırmızı : Hekayə /V.Solouxin, tərc. ed. İ.Şıxlı //Ədəbiyyat və incəsənət. – 1975. – 1 oktyabr. – S.8-9.





## Tərtibçisi, redaktoru olduğu, rəy verdiyi və ön söz yazdığı kitablar

**İsmayıl Şıxlının məqalələri, rəyləri, çıxışları həmişə ədəbi ictimai marağa səbəb olmuşdur. O, həmişə bu istiqamətdəki yaradıcılığında da xalqın ürəyindən keçənləri demişdir.**

**Buludxan Xəlilov,**
**Filologiya elmləri doktoru, professor**

### 1966

**83. Hüseyn, Mehdi.** Əsərləri: 10 cilddə / M.Hüseyn ; tərt. ed.: İ. Şıxlı, Z. Hüseynova ; red. Z. Qiyasbəyli . – Bakı: “Azərnəşr”, 1966. - I cild: Hekayələr və oçerklər.

### 1967

**84. Hüseyn, Mehdi.** Əsərləri : 10 cilddə / M. Hüseyn ; tərt. ed. İ. Şıxlı, Z. Hüseynova ; red. Z. Qiyasbəyli –. Bakı: “Azərnəşr”, 1967. - II cild: Povestlər

### 1968

**85. Hüseyn, Mehdi**. Əsərləri : 10 cilddə / M.Hüseyn ; tərt ed. İ. Şıxlı ; Z. Hüseynova – Bakı: “Azərnəşr”, 1968. III cild: Romanlar

### 1969

**86. Hüseyn, Mehdi**. Əsərləri : 10 cilddə / M.Hüseyn ; tərt ed. İ. Şıxlı ; Z. Hüseynova – Bakı: “Azərnəşr”, 1968. IV cild: roman: Abşeron

### 1970

**87. Şıxlı, İ.** XVIII əsr xarici ədəbiyyat tarixi : pedaqoji institutlar üçün dərs vəsaiti /İ. Şıxlı , M. Ə. Tahirli, M. B. Həyatzadə ; red. İ. Şıxlı. Bakı : “APİ”, 1970

## 1971

**88. Hüseyn, Mehdi**. Əsərləri : 10 cilddə: / M.Hüseyn ; tərt ed. İ. Şıxlı ; Z. Hüseynova; red. Z. Qiyasbəyli – Bakı: “Azərnəşr”, 1971. V cild: roman

## 1974

**89. Hüseyn, Mehdi**. Əsərləri : 10 cilddə: / M.Hüseyn ; tərt ed. İ. Şıxlı ; Z. Hüseynova; red. Z. Qiyasbəyli – Bakı: “Azərnəşr”, 1974. 1971. VI cild: roman: Səhər

## 1976

**90. Hüseyn, Mehdi**. Əsərləri : 10 cilddə / M.Hüseyn ; tərt ed. İ. Şıxlı ; Z. Hüseynova; red. Z. Qiyasbəyli – Bakı: “Azərnəşr”, 1976. VII cild: romanlar

## 1978

